**DÖVLƏT İNVESTİSİYALARI ÜZRƏ KADR POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ**

**LAYİHƏSİ (Kredit № 4595AZ)**

# AZ VƏSAİT HESABINA YOL TƏHLÜKƏSİZLİYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ TƏDBİRLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ ÜZRƏ PRAKTİKİ TƏLİMLƏRİN TƏŞKİLİNƏ DAİR

## MARAQLARIN İFADƏSİ ÜÇÜN DƏVƏT

Azərbaycan Hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyası arasında imzalanmış 4595AZ nömrəli Maliyyələşdirmə Sazişinə əsasən Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi həyata keçirilir. Layihənin İcraçı Agentliyi kimi Təhsil Nazirliyi təyin edilmişdir. Layihə üçün ayrılmış vəsaitin bir hissəsinin "Az vəsait hesabına yol təhlükəsizliyinin təkmilləşdirilməsi tədbirlərinin həyata keçirilməsi üzrə praktiki təlimlər"in maliyyələşməsinə sərf edilməsi nəzərdə tutulub.

**Təlimlərin məqsədi:**

Təlimlərin əsas məqsədi az vəsait hesabına yol təhlükəsizliyinin təkmilləşdirilməsi mövzusunda giriş təlimi keçmək, az vəsait ayırmaqla yol hərəkətinin təhlükəsizliyini təkmilləşdirmək məqsədilə metodları yol təhlükəsizliyi üzrə mütəxəssislərə təqdim etmək və öyrətməkdən ibarətdir.

**Təlim təchizatçısı üçün ixtisas tələbləri:**

Təlim təchizatçısı yol sektoru üzrə təlimlər keçirmək potensialı olan və bu sahə üzrə uğur qazanmış və yol sektorunda geniş təcrübəyə malik olan nüfuzlu şirkət olmalıdır. Şirkətin təlimçiləri tələb olunan təhsil ixtisas tələblərinə cavab verməli və müvafiq sahə və təlim üzrə ən azı 5 illik təcrübəyə malik olmalıdır. Azərbaycanda təcrübəyə və Azərbaycan dilini bilən heyətə malik olan şirkətə üstünlük verilir.

**İcra müddəti və yer:** 3 ay, Bakı, Azərbaycan

Təhsil Nazirliyi müvafiq şirkətləri qeyd olunan təlimlərin həyata keçirilməsinə maraqlarını bildirməyə dəvət edir. Xidmətlərə maraq göstərən şirkətlər ixtisas tələblərinə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri **2010-cu il iyulun 21-nə qədər** aşağıdakı ünvana təqdim etməlidirlər:

- müraciət məktubu;
- yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;
- müvafiq bacarıq və təcrübəyə malik olan heyət haqqında məlumat;

- nizamnamə.

Şirkət Dünya Bankının "Borcalanlar tərəfindən məsləhətçilərin seçimi və işə götürülməsi qaydaları"na əsaslanan *Məsləhətçinin Keyfiyyət Göstəricilərinə* dair satınalma metodu ilə seçiləcəkdir.

Əlavə məlumatları iş günləri ərzində saat 09.00-dan 18.00-dək aşağıdakı ünvandan əldə etmək mümkündür:


Azərbaycan Respublikasının Təhsil Nazirliyi,

Layihənin Əlaqələndirmə Qrupu,

AZ1008, Bakı şəhəri, Xətai prospekti, 49.

Əlaqələndirici şəxs: Elvin Rüstəmov

Əlaqə telefonları: 496-37-59, 496-37-60; faks: 496-93-68.

Email: erustamov@ultel.net